# UŞAQLARIN TƏRBİYƏSİNDƏ MUSİQİNİN ROLU

**"Avazı yaxşı gəlir, oxuduğu mahnı olarsa". Məşhur el məsəlini bu cür transformasiyaya uğratmağa məcburam. Çünki bu günki orta statistik məlumata görə musiqi məktəbinə getməyən, valideynləri opera teatrının qapısını tanımayan, evdə hər gün muğama qulaq asmayan uşaq öz yaşına, yaş psixologiyasına uyğun mahnı bilmir.**



Bütün günü küçələrdə, radio kanallarında verilən, bir-birinə oxşayan mahnılar, çoxdan balaca dinləyicilərin ev konsertlərinin repertuarına düşüb. İndiki uşaqlar "Kukla", "Cücələrim", "Şən Azərbaycan" kimi mahnıları bilmirlər.

AzTV kanalındakı uşaq verilişlərində uşaq mahnıları, uşaq musiqi kollektivlərinin çıxışları tez - tez səsləndirilir və musiqinin tərbiyəedici funksiyası, yaş və psixoloji məqamlar gözlənilir.

Amma bu verilişin də müasir uşağın intellektinə və zövqünə cavab verməməsi onun seyrci auditoriyasını daraldır. Milli televiziyanın uşaq verilişlərini çıxmaqla heç bir kanal uşaqlar üçün hazırladığı proqramlarda balacalar da böyük mahnılarını, özü də ara mahnıları oxuduğunun fərqinə varmırlar.

Uşağın qulağını hansı musiqi ilə doldursan, onu da öyrənib oxuyacaq. Əgər Azərbaycanda gecə - gündüz bütün teleradio kanalları Çin musiqisi versələr, bir aydan sonra kimsə başqa musiqini dinləmək istəməyəcək.

Üzeyir bəydən başlayaraq Qara Qarayev, Fikrət Əmirov, Səid Rüstəmov, Şəfiqə Axundova kimi gözəl bəstəkarlarımız həmişə uşaqlar üçün mahnı bəstələyiblər. Bu gün də Sevda İbrahimova, Oqtay Rəcəbov, Məryəm Əlibəyli və başqaları uşaqlar üçün mahnı bəstələyirlər. Lakin bu mahnılar ilbəil artan uşaq kollektivlərində ifa olunmur, məktəb, bağça proqramlarına salınmır.

Bu halda ümidimiz kiminsə xeyirxahlıq göstərməsinə, balaların zövqünə və Azərbaycan musiqisinin gələcəyini düşünməsinə qalır.

Uşağın musiqi tərbiyəsini düzgün qurmaq lazımdır ki, gələcəkdə o, ən azı dinləyici kimi musiqidə yaxşını pisdən ayıra bilsin. Əgər kimsə düşünür ki, orta məktəbdə musiqi dərsi axırıncı yerlərdən birindədir, yanılır. Musiqi müəllimi yüksək intellekt sahibi olmalıdır ki, öz dərsini ədəbiyyat, tarix, coğrafiya fənləri ilə əlaqələndirə bilsin, musiqinin gücü ilə uşaqlarda vətənpərvərlik hisslərini artırsın, onlarda xeyirxah duyğular tərbiyə etsin.

İbtidai siniflərdə musiqi təliminin vəzifələri əsasən aşağıdakılardan ibarətdir:

- musiqini hiss etməyin, sevməyin, ondan həzz almağın və onu qiymətləndirməyin formalaşdırılması;
- şəxsiyyətin estetik - mənəvi keyfiyyətlərinin, dünyagörüşünün inkişaf etdirilməsi;
- estetik hisslərin, bədii zövqün tərbiyə edilməsi;
- musiqi yaradıcılığı bacarıqlarının formalaşdırılması;
- şagirdlərin musiqiyə dair bilik, bacarıq və vərdişlərə yiyələnmələrinin təmin edilməsi.

Hər bir sinif üzrə musiqi dərslərində aşağıdakı əsas musiqi fəaliyyətləri yerinə yetirilir: musiqi dinlənilməsi, onun qavranması, mahnı oxumaq, not savadına yiyələnmək, musiqili - ritmik hərəkətləri yerinə yetirmək, sadə musiqi alətlərində çalmaq, improvizasiya və s.

Musiqi dərsləri məktəblilərin və yetişməkdə olan gənc nəslin hərtərəfli inkişafına təsir göstərir, onlarda Vətənə, ictimai - faydalı əməyə və təlimə məhəbbət hissi tərbiyə edir.

Musiqinin həyatla əlaqəsinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə ibtidai məktəb proqramına humanizm, beynəlmiləlçilik, vətənpərvərlik və optimizmi əks etdirən əsərlər daxil edilmişdir. Milli musiqimizin nümunələri, milli mənliyimizin tərənnümü proqramda xüsusi yer tutur.

Milli dəyərlər ümumbəşəri dəyərlər fonunda, onlarla vəhdətdə təqdim edilir. Beləliklə, millilikdən ümumbəşəriliyə doğru istiqamət proqramın ana xəttini təşkil edir. Materiallar uşaqların yaş xüsusiyyətləri və imkanları nəzərə alınaraq seçilmişdir.

Məktəblilərin musiqi dünyagörüşünün genişləndirilməsində musiqi dinləmə böyük əhəmiyyətə malikdir. Bu məqsədlə lap birinci sinifdən başlayaraq musiqi sənətinin emosional məzmunu və musiqi ifadə vasitələri arasında əlaqə yaratmaq nəzərdə tutulur.

Bunun üçün dinamika, registr, melodiya, ritm, musiqi janrları və quruluşları, səslərin və musiqi alətlərinin, xor və orkestrin tembri haqqında məlumatlara yiyələnməyin əhəmiyyəti böyükdür.

Ancaq əfsuslar olsun ki, indi bəzi məktəblərdə fənn müəllimləri dərs çatışmamazlığı nəticəsində musiqi dərsini tədris edirlər.

Bu da yetişməkdə olan gənc nəslin bir azda musiqi duyumunun itməsinə gətirib çıxarır. Çünki bir çox "musiqi müəllimlərimiz" hətta proqramda olan bəzi mahnıları özləri bilmirlər.

İlk baxışda elə görünə bilər ki, uşaq mahnılarını çap etdirmək, lentə aldırmaq izafi xərcdir. Halbuki, marketinq qaydaları gözlənilməklə bu işi də elə qurmaq olar ki, həm maddi qazanc əldə edərlər, həm də mənəvi. Əslində bu işi görmək istəyən kəsin gəliri savabdan, vətənpərvərlik borcundan qazandığı daha çox olacaq.

Çünki heç inanmıram ki, kimsə uşaq mahnılarının pirat nüsxələrini çoxaldıb küçələrdə satmaq həvəsinə düşər.

Lakin reklam yaxşı qurulduqda birinci sinfə getmək, "Əlifba" bayramı, yarışda qalib gəlmək, lap elə ad günü münasibəti ilə sinif yoldaşına, qohum uşağına hədiyyə kimi belə bir mahnı çələngi hədiyyə etmək olar.

Üstəlik, uşaq mahnılarından hit - parad olmadığından bir dəfə yazılmış lenti dəfələrlə təkrar tiraj kimi satışa çıxarmaq mümkündür. Belə olduğu halda nəsil dəyişdikcə yaxşı uşaq mahnısının dinləyicisi və ifaçısı da olacaq.

**Yaddan çıxarmayaq ki, bu gün Azərbaycan səhnəsində olan Nisə Qasımova, Firuzə İbadova və Azərbaycan musiqisini bütün dünyada ləyaqətlə təmsil edən, səhnəmizin canlı korifeyi Zeynəb Xanlarova məhz mərhum bəstəkarımız Əfsər Cavanşirovun rəhbərlik etdiyi "Bənövşə" uşaq xorunun yetirmələridirlər.**

Müjkan MƏMMƏDZADƏ,
*Mədəniyyətşünaslıq üzrə EMM-in metodisti, ABU-nun baş müəllimi*